# Egey Universitetinin professoru:

# Təcavüzkar Ermənistan cavabını alır



***Ermənistanın 27 sentyabr tarixində Azərbaycana qarşı yeni təcavüz aktı son aylarda Ermənistan tərəfinin güclənən təxribatlarının davamı idi. O cümlədən 12-16 iyulda Tovuz istiqamətində hücum cəhdi, 23 avqustda Goranboy istiqamətində diversiya-kəşfiyyat təxribatı, Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni məskunlaşdırma siyasəti Ermənistan rəhbərliyinin təhrikçi bəyanatları ilə davam etdirilirdi. Ermənistan ordusu tərəfindən genişmiqyaslı təxribatların törədilməsi və mülki yaşayış məntəqələrinə iriçaplı silahlardan, toplardan və minaatanlardan atəş açılması barədə xəbərlər nəhayət ki, cavablandırıldı. Bu barədə qəzetimizə danışan Türkiyənin İzmir şəhərindəki Egey Universitetinin professoru Aydın İbrahimov qeyd etmişdir ki, Ermənistan ordusu tərəfindən dinc əhalinin iriçaplı silahlardan atəşə tutulması Türkiyədə böyük qəzəb doğurub.***

Xüsusən də top atəşi nəticəsində Naftalanda bir ailənin beş üzvünun faciəli ölümü erməni faşizminin növbəti təxribatıdır. Bu təcavüz nəticəsində həlak olanlardan ikisinin məktəbli olması bu hiddəti dəfələrlə artırır. Sivil dünyanın həyəcan təbili çalmalı olduğu bu kimi hadisələrsə birinci dəfə deyil ki, törədilir. Azərbaycan dövlətinin özünümüdafiə hüququndan istifadə edərək qətiyyətli cavab verilməsi ilə bağlı qərarı qardaş ölkədə hamını həyəcanlandırdı və haqlı bir mövqe kimi dəyərləndirildi. Bu gün bütün 83 milyonluq türk xalqı və dövləti bu qərarın bir nömrəli tərəfdarıdır.

***– Deməli müharibə Ermənistanın təxribatına verilən cavabdır.***

– Əlbəttə, müharibənin nə demək olduğunu hər kəs yaxşı bilir, amma 30 ilə yaxındır ki, Azərbaycanın başına gətirilən faciə və müsibətlərin cavabı olmalıydı. Təəssüf edirəm ki, bu cavabı verməli olan beynəlxalq təşkilatlar ədalətdən uzaq mövqedə dayandı. İkili standartlar imkan vermədi ki, əsl həqiqət ortaya qoyulsun. Onu da bildirim ki, bu kimi mövqesiz çağrışlar bu gün də çox yüksək tribunalardan, hətta dövlət rəhbərinin dilindən eşidilir və davam etdirilir.

***– Konkret nəyi nəzərdə tutursunuz?***

– Az qala hər kəs canıyananlıqla münaqişənin dayandırılmasına, sülh danışıqlarına başlamağa çağrışlar edir. Amma işğalçıya da, işğala məruz qalana da eyni münasibətin olması böyük haqsızlıq deyilmi?! Bu məsələdə qardaş Türkiyənin ardıcıl wvə ədalətli mövqeyi bütün dünyaya ibrət olmalıdır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi Ermənistan işğal etdiyi ərazilərdən dərhal geri çəkilməli, region yenidən sülh və sabitliyə qovuşmalıdır. Əslində bu mövqe bir qardaş ölkə rəhbərinin mövqeyi olmaqla yanaşı, ədalətin ortaya qoyulmasıdır. Ermənistanın Azərbaycana qarşı təcavüzü və işğalçı fəaliyyəti beynəlxalq hüququn norma və prinsipləri ilə həll edilməli idi. Beynəlxalq ictimaiyyət Ermənistanın işğalçılıq siyasətini və təxribatçı əməllərini kəskin şəkildə qınamalı və bu ölkəni beynəlxalq humanitar hüquq öhdəliklərinə əməl etməyə məcbur etməlidir.

***– Bunun üçün daha bir 30 il də gözləməkmi lazım idi?***

– Təbii ki, yox, bu gün yeni bir atəşkəsə çağrış edənlər bu haqlı sualın cavabını verməli, erməni təcavüzünün bu qədər böyüməsinə imkan verməməli idilər. Uzun illər tam başqa mənzərənin şahidi olduq, hətta münaqişənin həllinə çalışan erməni siyasətçilərin taleyi belə acınacaqlı oldu, hakimiyyət böhranı başladıldı, xarici və daxili siyasət faşist əhvalında quruldu, parlament gülləboran edildi və s. Sizcə, bunun sonu nə olmalıydı?!

***– Demək istəyirsiz ki, bu gün ağır artilleriyadan sərhədboyu ərazilərimizi atəşə tutan düşmən layiqli cavabını alır.***

– Bəli, bundan əvvəlki hadisələrdən ciddi nəticə çıxarmayan işğalçı Ermənistan daha böyük faciələrlə üzüzədir. Azərbaycanın dövlət başçısının da qeyd etdiyi kimi, Azərbaycan heç bir təxribata əl atmayıb. Azərbaycan öz maraqlarını müdafiə edir, öz torpağını işğaldan azad etmək istəyir. “Qarabağ Ermənistandır” deyən Ermənistanın faşist baş naziri xarici havadarlarının uydurduğu yalanlara rövnəq verəndə bunları görməliydi. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki biz doğma, dədə-baba torpağımızı işğaldan qurtarmaq üçün səfərbər olmuşuq. İşğalçıya layiq olduğu yer göstəriləcək. Bu dəfə onlar canlarını qurtara bilməyəcəklər. Bunu təcavüzkar Ermənistana havadarlıq edən riyakar mövqeli beynəlxalq təşkilatlar da görəcək.

***– Kimləri nəzərdə tutursuz?***

– Adları çəkilməli olanların sayı-hesabı varmı ki? Minsk qrupundan tutmuş demokratik dəyərlərindən danışan Avropanın ən mötəbər dövlətlərinin, beynəlxalq dairələrinin adlarını qeyd-şərtsiz bu siyahıya salmaq olar. Digər tərəfdən bunların xeyli dərəcədə ermənilərin uzun illərdən bəri özünü təsdiqləmiş lobbiçilik və diaspor fəaliyyəti ilə əlaqədar olduğu hər kəsə məlumdur. Amma müsəlman dünyasının bu məsələdəki mövqeyi, daha doğrusu mövqesizliyi hec cür qəbul edilən deyil. Pakistanı çıxmaq şərtilə, böyük bir islam dünyası Ermənistana dəstək verməkdədir. Məscidləri dağıdan, hətta burada donuz bəsləyən erməni faşistlərinə etirazları bir yana, onlara dəstək verən, təkcə ərzaq, enerji, yanacaq yox, hətta silah dəstəyi belə verən “müsəlman qardaşlarımızın” əməli fəaliyyətinə qiymət vermək çox çətindir.

***– BMT Təhlükəsizlik Şurasının qapalı iclası haqqında nə deyərdiniz?***

– BMT-nin Təhlükəsizlik Şurası qapalı iclasda Dağlıq Qarabağdakı vəziyyəti müzakirə etdi və Baş katib Antonio Quterreşin münaqişənin dayandırılması və gərginliyin azaldılması ilə bağlı çağırışlar etdi. Yəqin ki, belə də olmalı idi. Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var. Bu qətnamələr də təsdiq edir ki, Qarabağ torpağı Azərbaycanındır. Ermənistan işğalçı tərəfdir. Ermənistan işğal etdiyi torpaqları tərk etdiyi anda, bu problem öz həllini tapacaq. Minsk qrupu artıq 30 ildir bu məsələnin həlli istiqamətində heç nə etməyib. Görünən budur ki, ATƏT-in Minsk qrupu və beynəlxalq ictimaiyyət sülh və danışıqlar prosesində obyektiv münasibət sərgiləməyib, davamlı və ədalətli sülhə nail olmaq missiyalarını yerinə yetirə bilməyiblər. BMT qərarlarına hörmət etməlidir. Beynəlxalq təşkilatların görmədiyi işi BMT tərəfindən təsbit olunmuş özünümüdafiə hüquqlarından istifadə edərək Azərbaycan xalqı və Azərbaycan dövləti həyata keçirmək əzmindədir.

***– Hadisələrin təqdimatında mətbuatın rolunu necə dəyərləndirərdiniz?***

– Sualınızın cavabı birmənalı olmayacaq, burada həm Azərbaycan, həm də xarici mətbuatın rolundan danışmaq lazım olacaq. Birincisi, Azərbaycan mətbuatının bu sahədəki fəaliyyətini cox yüksək dəyərləndirərdim. Dövlətin bu sahədəki fəaliyyəti cəbhədəki fəaliyyət qədər uğurludur. Sosial şəbəkələrin fəaliyyətinin, internetin qismən dayandırılması müharibə qanunlarının tələblərindən irəli gəlirdi və adamların sayğılı münasibətləri olduqca təqdirəlayiqdir. İnformasiyanın bir mənbədən alınıb, operativ yayınlanması önəmli olduğu qədər də vacib idi və mətbuatın uzun illərdən bəri qazandığı təcrübənin nəticəsi oldu. Xarici mətbuatın mövqeyinə gəldikdə isə, burada da uğurlu təqdimatın şahidiyik. Türkiyənin bütün mətbuat orqanlarının məsələni çox geniş işıqlandırması, həm də dövlət və xalqlarımızın birliyinin təcəssümu idi. Günlərdir ki, bütün qəzetlər və TV kanalları məsələnin geniş təhlilini verməkdədir, bir an belə hadisələrin gedişi diqqətdən yayınmayıb.

Dünya mətbuatında gedən xəbərlərsə göstərdi ki, bu sahədə ciddi işlər aparılmalıdır. Azərbaycanın siyasət adamlarının, millət vəkillərinin, səfirlik əməkdaşlarının Amerika və Avropa mətbuatında dərc edilən məqalə və müsahibələri Azərbaycan dövlətinin son dərəcədə uğurlu siyasətinin bəhrəsi idi. Ən azı dünya mətbuat orqanlarının neytral mövqeyinin səslənməsi də bizim xeyrimizə olan hadisədir. Amma bu barədə fəaliyyətin yenidən qurulmasına ciddi ehtiyac var. 90-cı illərdə Azərbaycanda dünyanın çox məşhur informasiya orqanlarının ofis və nümayəndəlikləri var idi, bu gün bu sistemin yenidən qurulması Azərbaycan üçün vacibdir. Prezidentin köməkçisi Hikmət Hacıyevin Türkiyədə akreditasiya olunmuş xarici jurnalistlərlə onlayın görüşü bu məsələnin nə qədər aktual olduğunu gündəmə gətirir. Əminəm ki, bunlar tədricən yoluna qoyulacaq məsələlərdir.

Bu gün isə təcavüzkar Ermənistan həm də təxribat məqsədli informasiya müharibəsi aparır. Ermənistan rəsmilərinin açıqlamalarında, media məlumatlarında Azərbaycan tərəfindən guya Yaxın Şərqdən gətirilmiş muzdlu döyüşçülərin vuruşması barədə saxta xəbərlərin yer alması, Türkiyə Ordusunun da əks-hücum əməliyyatlarında iştirakı haqqında qondarma məlumatlar yaymaqla Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarından diqqəti yayındırmağa çalışır. Cəbhədəki uğurlar və düşmənin müdafiə xəttinin yarılması təcavüzkar ölkədə böyük təşviş yaradıb. Ermənistan hakimiyyəti və KİV-ləri bunun səbəbini muzdlu döyüşçülər və Türkiyə amili ilə izah etməklə daxili auditoriyanı aldatmağa cəhd edir. Burada Türkiyə amilinin xüsusi qabardılması Ermənistanın döyüş meydanında tək qaldığını göstərmək və kənar dəstəyə ehtiyacının olduğunu sübuta yetirməkdir. Amma ortaya sübutların qoyulmaması yalan iddiaları dağıtmaqdadır.

Bu gün Azərbaycan Ordusunun cəbhədəki uğurları, əsgərlərimizin döyüş şücaəti hər birimizə sevinc hissi yaşadır. Azərbaycan xalqının illərdir gözlədiyi Böyük Qələbənin üfüqləri görünməkdədir. Cəmiyyətdəki ruh yüksəkliyi, orduya inam, qələbəyə əminlik və Ali Baş Komandan İlham Əliyevin ətrafındakı birliyimiz xalqımızı zəfər bayramına günbəgün yaxınlaşdırmaqdadır.

***Namiq QƏDİMOĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 7 oktyabr.- S.4.